Rusiyanın Ukraynaya qarşı hərbi təcavüzü ilə bağlı
Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyasının
BƏYANATI

Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyası Rusiyanın postsovet ölkələrinə qarşı yürütdüyü təcavüzkar və rus imperiyasını bərpa siyasətini, Ukraynaya hərbi müdaxilə faktının dünya və region, o cümlədən, Azərbaycan üçün yarada biləcəyi təhlükələri təhlil edərək, aşağıdakı mövqeyini bəyan edir:

Beynəlxalq hüquq normalarına, NATO üzvü olan ABŞ, Fransa, Almaniya və Böyük Britaniya liderləri ilə danışıqlarda əldə edilmiş razılaşmalara, həmçinin Ukrayna, Rusiya, Böyük Britaniya və ABŞ liderləri tərəfindən Ukraynanın təhlükəsizliyinə zəmanət verilməsinə dair imzalanmış 5 dekabr 1994-cü il tarixli Budapeşt Memorandumunda nəzərdə tutulan öhdəliklərə əməl etməyərək, eyni zamanda Ukrayna prezidentinin sülh çağırışlarına məhəl qoymayaraq Vladimir Putinin əmri ilə Rusiya qoşunları fevralın 24-də Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədlərini dörd istiqamətdən pozaraq hərbi əməliyyatlara başlayıb. Hərbi əməliyyatlar nəticəsində hər iki tərəfdən çox sayda mülki vətəndaşların, eyni zamanda hərbi qulluqçuların öldüyü və yaralandırğı bildirilir.

ADR Partiyası sülhsevər və mütərəqqi dünya ölkələri, eləcə də bu ağır günlərdə ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizə aparan Ukrayna xalqı ilə həmrəylini bildirir, Ukrayna prezidenti Volodimir Zelenskinin təklifi ilə Rusiya prezidenti Vladimir Putin əleyhinə beynəlxalq koalisiyasının yaradılmasını alqışlayır, Azərbaycan hakimiyyətini də bu təklifi dəstəkləməyə çağırır.

ADR Partiyası Qərb dövlətlərinin, Yaponiya və Avstraliyanın Rusiyaya qarşı sanksiya tədbirlərini alqışlayır, sanksiyaları daha da sərtləşdirməyə, həmin ölkələrin hava məkanını Rusiyanın üzərinə bağlamağa, rus vətəndaşlarına viza verilməsini məhdudlaşdırmağa, rus banklarını Swift-dən çıxarmağa çağırır.

ADR Partiyası 5 dekabr 1994-cü il tarixli Budapeşt Memorandumunda Ukraynanın öz nüvə arsenalını ləğv etməsi əvəzində ABŞ və İngiltərəni Ukraynanın təhlükəsizliyi ilə bağlı üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməyə, Ukraynaya qarşı Rusiya işğalının dayandırılması istiqamətində öhdəliklərini dərhal nəticə verən üsullarla icra etməyə çağırır.

ADR Partiyası hesab edir ki, bəşəriyyət və insanlıq naminə ABŞ, İnngiltərə və NATO üzvü olan digər ölkələr də Rusiyanın təcavüzkarlığını dayandırmaq üçün daha effektiv və əməli tədbirlər görməyə borcludurlar.

ADR Partiyası təcavüzkar Rusiya Federasiyasının siyasi və hərbi rəhbərliyinin insanlıq əleyhinə hərbi cinayətlərə görə hüquqi məsuliyyət daşıdığını bəyan edir və törətdikləri cinayətlərə görə onların beynəxalq qanunlara uyğun olaraq hərbi tribunalda cəzalandırmasını tələb edir.